# Azərbaycan Respublikasının Bədən tərbiyəsi və idman haqqında Qanunu (Çıxarışlar)

**Maddə 4. Bədən tərbiyəsi və idman sahəsində dövlətin vəzifələri**

**4.0.10.** Bədən tərbiyəsi və idman vasitələri ilə əhali arasında hüquqpozmaları, narkomaniya, tütündən istifadə, alkoqolizmin profilaktikası üzrə tədbirlər sisteminin işlənib hazırlanması və həyata keçirilməsi;

**Maddə 13. Bədən tərbiyəsi və idmanın təşviqi və təbliği**

**13.2.** İdman obyektlərində, eləcə də bədən tərbiyəsi-sağlamlıq tədbirləri və yarışlarının keçirildiyi digər yerlərdə reklamın yerləşdirilməsi və yayımı qaydası, habelə idman mərc oyunlarının reklamına dair tələblər "Reklam haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

**Maddə 40. Bədən tərbiyəsi-sağlamlıq və idman tədbirlərinin təşkili və keçirilməsi**

**Maddə 40-1.** Kütləvi idman tədbirlərinin və idman yarışlarının keçirilməsi zamanı zorakılığın qarşısının alınması, ictimai təhlükəsizliyin və ictimai asayişin təmin edilməsi

**40-1.4.** Kütləvi idman tədbirləri həyata keçirilən zaman idman obyektlərinin ərazilərində və tamaşaçılar üçün nəzərdə tutulmuş yerlərdə aşağıdakılar qadağandır:

**40-1.4.1.** Açıq odlu mənbələrdən istifadə etmək, siqaret çəkmək, alkoqollu içkilər qəbul etmək, narkotik vasitələrdən, psixotrop maddələrdən, onların analoqlarından, habelə toksik təsir edən maddələrdən istifadə etmək;

**İlham Əliyev**

Azərbaycan Respublikasının Prezidenti

**Bakı şəhəri, 30 iyun 2009-cu il**

**№ 847-IIIQ**